https://doi.org/10.59849/3006-1342.2025.2.88
UOT 94(479.24)

*Yasin Ətraf oğlu Alməmmədov*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: almmmdovyasin@gmail.com*
*Ruziyə Akif qızı Abdullayeva*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Böyük laborant*
*E-mail: abdullayevaruziye596@gmail.com*
*Röya Asif qızı Həsənova*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Böyük laborant*
*E-mail: hesenovar727@gmail.com*

# QƏTRAN TƏBRİZİNİN ƏSƏRLƏRİNDƏ XI ƏSR GƏNCƏ MÜHİTİ VƏ ARRANŞAHLIQ

*Məqalədə X-XI əsrlərdə Gəncə şəhərinin formalaşması, şəhərin saray mühiti və paytaxta çevrilməsi araşdırılmışdır. Bu proseslər XI əsr məşhur Azərbaycan şairi və mütəfəkkiri Qətran Təbrizinin qəsidələri, həmçinin mədhiyyələrindəki təsvirlər, obrazlar əsasında izlənilmiş, Arranşahlıq mühiti, bu mühitin və regionun qarşılıqlı siyasi proseslərə təsiri öyrənilmişdir. Məqalədə Arranşahlığın Paytaxtı Gəncədə baş vermiş hadisələr haqqında müasir müəlliflərin əsərlərindən istifadə olunmuşdur.*

*Açar sözlər:* Gəncə, Arran, Arranşahlıq, Şəddadi, Səlcuqlu, Fəzlun, Əli Ləşkəri, Qətran Təbrizi

## *Giriş*

Azərbaycanın orta əsrlər tarixi bu günəcən öyrənilməkdə davam edir. Çünki Orta əsrlər üzrə tədqiqat obyektləri, əsasən də yazılı mənbələr ərəb-fars əlifbasında, həmçinin müxtəlif qədim dillərdə, fərqli dövlətlərin arxiv və kitabxanalarında qorunub saxlanmaqdadır. Buna görə də hər bir xırda məlumat Azərbaycan tarixşünaslığı üçün ciddi mahiyyət kəsb edir. Məqalədə mövcud materialların dəyərləndirilərək bölgənin tarixi və geosiyasi mənzərəsi təsvir edilməyə çalışılmışdır. Tədqiqata cəlb olunan əsərlər içərisində yeni tədqiqat əsərləri də vardır. Burada Hökmdarın saraydakı nüfuzu, əmirlik sistemi, əmirlərin ünvanları göstərilmişdir. Eləcə də X-XI əsrlərdə baş vermiş siyasi hadisələr və onların sonrakı tarixi mühitə təsiri öyrənilmişdir.

Arran adı Azərbaycan tarixçiliyində xüsusi yer tutur. Bu barədə ciddi tədqiqatlardan biri Qiyasəddin Qeybullayevin araşdırmalarıdır. O özünün «К Этногенезу Азербайджанцев» adlı əsərində toponimikada və onomastikada Aran adının yaxın bölgələrdə və Türk dünyasındakı arealını işlənmə tezliyini, formalarını izləmişdir. Bu məqsədlə orta əsr Ərəb, antik dövr Roma, orta əsr qrabar dilindəki mətnlərə və bir çox digər mənbələrə müraciət etmişdir. Toponimikada Azərbaycanda Aranzəmin(Çadarants), Aranlı, Aran düzü(eznarants), Arandaşants, Qarabağda Aran-Dərbət, Bərdədə Eranbat(Aranabad), həmçinin İrəvan quberniyasının "Yeni Bəyazid" uyezdində Eranos kəndi, Eranos dağı, Dağıstanda Arantau, Arankutan, Aranbulak, Muqaranı, Rusiya federasiyasında Stavropol bölgəsində Oranaytəpə yer adını qeyd edir. Həmin əsərdə karakalpak və türkmənlərin içərisindəki Aranji və Aranşı adlı tayfaların mövcudluğunu göstərir [8, s.119-122; 349-350]. Azərbaycanda hazırda mövcud

olan Əsgəran adı da Aran adı ilə bağlı olub Əski və Aran sifətlə ismin birləşməsindən əmələ gəlmişdir. Müasir dövrdə Aran adının toponim, omonim, oronim və antroponim olaraq istifadə olunduğu əsas bölgələr türkdilli xalqların yaşadığı, yaşamış olduğu ərazilərdir. Azərbaycanda bu adın ilk dəfə işləndiyi dövrlərdən biri Qafqaz Albaniyasının mövcud olduğu dövrdür. Mənbələrdə Albaniyanın ilk hökmdarının Aran adlı şah olduğu və onun nəslinin Aranşahlar sülaləsi adlandığı yazılır. Bu sülalədən olan aristokratlar bölgənin idarəçiliyində aktiv iştirak etmişlər. Aranın nəslindən sonuncu Alban hökmdarı Porasman sayılır. Sonralar Mehranilər sülaləsinin qurucusu Mehran rəvayətə görə bu nəsildən 60 nəfəri zəhərləmiş yalnız qohumu olan Zərmehri sağ saxlamışdı. Xilafət dövründə Babəkin yaxalanmasında adı çəkilən, Göyçə gölü yaxınlığındakı Şəki qalasının sahibi Səhl ibn Smbat da bu nəsildən idi.

Arran adı Xilafət dövründə vilayət adı kimi mövcudluğunu qorumaqda idi. Bu ad altında Tiflis, Gəncə, Bərdə, Beyləqan şəhərlərinin də yerləşdiyi böyük bir ərazi, həmçinin Qarabağ da nəzərdə tutulurdu. Titul, yəni ünvan kimi Azərbaycan və ərməniyyə ünvanları ilə birgə işlənirdi, çünki bura təyin olunan əmirlər bu bölgələrin hamısına nəzarət edirdilər. Bunların içərisində 800 il mövcud olmuş Şirvanşah feodal dövlətinin əsasını qoymuş Yəzid, onun yaxın qohumları və nəvələri də var.

Şəddadilər sülaləsinin rəhbərlik etdiyi Arran əmirliyinin formalaşması ciddi bir prosesdir. Sülalənin əsasını Məhəmməd ibn Şəddad ibn Gurtaq qoymuşdur. Dövlətin qurulması Salarilər dövlətinin zəiflədiyi dövrə təsadüf edir. Məhəmməd ibn Şəddad 951-954-cü illərdə Dəbil şəhərini idarə etmiş, dövlət qurmağa çalışmış lakin məğlubiyyətə düçar olmuş, nəhayət 955-ci ildə Vaspurakanda dünyasını dəyişmişdir. Elə həmin dövrdə Salarilər ərazilərinin sərhəd bölgələrini qorumaqdan aciz idilər. Belə bir vaxtda Gəncəni Salari canişini Əli idarə edirdi. Gəncə şəhərinin ərəb-fars qaynaqlarında(“Tarixi əl Bab” əsəri) Aran hakimi olmuş Məzyədi Məhəmməd ibn Xalid tərəfindən qoyulduğu hesab edilir. Məhəmməd ibn Xalid məşhur ərəb sərkərdəsi Yezid ibn Məzyədin nəslindən idi. Onun qardaşı Heysəm ibn Xalid Şirvanşahlar dövlətinin əsasını qoymuşdur. Məhəmməd ibn Xaliddən etibarən Gəncə Qafqazın mühüm şəhərlərindən birinə çevrilməyə başlayır. Lakin Gəncənin əhəmiyyət qazanması əsasən 944-cü ildə qüdrətli Bərdə şəhərinin rosslar(vikinqlər) tərəfindən yandırılmasından sonra baş verir. X əsrdə yaşamış İbn Hövqəlin redaktə etdiyi, müasiri, Əl İstəhrinin “Kitab Məsalik Əl-Məmalik” adlı coğrafi əsərində Beyləqan, Bərdic, Şəki, Şirvan Gəncə bir neçə digər şəhərin oxşar böyüklükdə kiçik şəhərlər olduğunu qeyd edilir [7, s. 113]. Bu bir daha Gəncənin iqtisadi, siyasi və demoqrafik genişlənməsinin Şəddadilərin hakimiyyətə gəlməsindən sonra baş verdiyini sübut edir.

Şəddadilər meydana çıxanda qeyd etdiyimiz kimi Gəncə Salarilərin idarəçiliyində idi. Lakin bu bölgə Salarilərin nəzarətindən kənar halda, yalnız yerli vəsait və yerli əhalinin cəhdi sayəsində ayaqda qalmışdı. Şəhər ətrafında Suvar tayfaları yaşayırdı. Bunlar türk tayfaları idi. V-VI əsrlərdə hunların arxasınca orta Asiyadan suvar tayfaları köç etmiş, onların bir qismi tarixi mənbələrə görə Qafqazda, məhz Gəncə ətrafında məskunlaşmışdılar. Qrabardilli mənbələrə görə isə suvarlar artıq II-III əsrlərdə Qafqaza köç etmişdilər. Belə deyə bilərik ki, Gəncə iki tip həyat tərzi keçirən əhaliyə sahib idi, oturaq və köçəri. Köçəri tayfalar dövlətlərin güclü vaxtında dinc həyat keçirtsələr də mərkəzi hakimiyyət zəiflədikdə axınlara başlayırlar. X əsr də Azərbaycanda siyasi stabilliyin pozulduğu, yeni feodal dövlətlərin formalaşdığı dövr idi. Digər köçərilər kimi suvarlar da ətraf bölgələrə, həmçinin Gəncə şəhərinə yürüşlər təşkil edirdilər. Şəhəri idarə edən Əmir Əli isə bu yürüşlərin qarşısını almaqda çətinlik çəkirdi.

Məhəmməd ibn Şəddadın oğlu Fəzlun 967-ci ildə Diyarbəkir hakimi Seyfəldövlənin sarayından qovulmuşdu. O bir müddət Veyzurda qardaşı Əli Ləşkərinin yanında qalsa da az sonra Salari İbrahim ibn Mərzubanın sarayına gəlir, o isə öz növbəsində Fəzlunu Gəncə hakimi Əli Tazinin yanına göndərir. Əli Tazi Fəzlunun yardımı ilə Suvar tayfalarının növbəti hücumlarını dəf edərək əhalini xilas edir. Bu müddətdə şəhər əhalisinin və böyüklərinin

etibarını qazanır. Daimi təhlükə hiss indən bezmiş şəhər əhalisi Fəzluna şəhər hakimliyini ələ almağı təklif etsələr də o, adət-ənənəyə sadiq qalaraq böyük qardaşının taxta keçməsini təklif edir. Beləliklə, 971-ci ildə şəhər əyanlarının yardımı ilə Gəncə Şəddadilərin əlinə keçir. Şəddadi I Əli Ləşkəri(971–978) hakimiyyətdə olduğu dövrdə ətraf şəhərləri, Şəmkiri və Bərdəni özünə tabe edə bilir [3, s. 49]. I Əli Ləşkəri Gəncədə olarkən Fəzl də Dəbildə fəaliyyət göstərərək Dəbil hakimliyinə yüksəlir. Lakin, Əli Ləşkərinin vəfatından sonra yerinə gələn ortancıl qardaşı Mərzuban(978–985) Beyləqan və Bərdə şəhərlərini itirir. Siyasi vəziyyətin qarışdığını görən əyanlar yenidən Fəzlunu dəvət edirlər. Mərzuban və oğlu qətlə yetirilir. I Fəzlunun(985-1031) idarəçilik dövrü Arran əmirliyinin, şahlığının yaranma dövrüdür. Fəzlun nəinki Bərdə, Beyləqan, həmçinin indiki Qarabağ ərazisini də ələ keçirtmiş, şahlığın sərhədlərini Tiflis əmirliyinə qədər genişləndirə bilmişdir. Gəncənin rahat inkişaf edə bilməsinin bir neçə səbəbi var idi. Məsələn döyüşkən köçəri atlı tayfaların ətrafda yerləşərək təbii səddə çevrilməsi, digər ərazilərdən izolyasiya olunması, Qara dənizlə Xəzər dənizinin, Şimali və Cənubi Qafqaz dağlarının mərkəzində yerləşməsi əsas amillərdən idi. Bərdədən sonra ətrafda təbii-coğrafi mövqeyinə görə Gəncəyə rəqib ola biləcək ikinci bir şəhər yox idi. Şərqdən Şirvanşahlar şimal xalqlarının qarşısını kəsmişdilər, qərbdə isə Tiflis əmirliyi xristian dövlətlərinin qarşısında təbii maneəyə çevrilmişdi. Lakin XI əsrin əvvəlləri vəziyyət kəskin şəkildə dəyişir. Bizans Roma imperiyası Abxaziya tərəfdən bölgəyə təsir göstərməyə başlayır. Cəfərilər sülaləsinin idarə etdiyi Tiflis şəhəri öz hərbi siyasi qüdrətini itirərək kömək üçün ətraf dövlətlərə müraciət edir. Xüsusilə, Arran əmirliyinin paytaxtı olan Gəncə sarayı Tiflis əmirliyinin mühafizəsində ən ciddi müttəfiq hesab olunurdu. Bu dövrdə Tiflis və Dəbil əmirlikləri Arran şahlığının vassallarına çevrilirlər. Belə ki, 1022-ci ildə Fəzlunun oğlu Əbu ül əs-Süvar Dəbildən Baqratuni-Gürige knyazının qovulmasından sonra şəhər hakimi təyin olunur, o hətta burada 1045-ci ildə Roma ordularını məğlub etməyə nail olur. Şəddadilərin digər əmirliyi Beyləqan əmirliyi idi. 1030-cu ildə Fəzlunun digər oğlu Əskuyə Beyləqanda atasına qarşı üsyan qaldırır. Bu vaxt Xəzər dənizindən vikinqlər növbəti hücumlarını gerçəkləşdirmişdilər. Fəzlunun böyük oğlu Musa onları muzdla tutaraq Əskuyə təhlükəsini dəf edir [3, s. 55]. 1031-ci ildə hakimiyyətə çıxan Əbülfəth Musa(1031-1034) cəmi 3 il sonra 1034-cü ildə oğlu II Əli Ləşkəri(1031-1049) tərəfindən öldürülür. II Ləşkərinin dövrü Arran əmirliyinin müstəqil olduğu ən parlaq dövrdür. Əli Ləşkəri kifayət qədər aktiv siyasətçi və böyük sərkərdə idi. 15 illik hakimiyyəti müharibələr içərisində keçmişdi. Belə bir dövrdə də Qətran Təbrizi onun sarayına gəlmişdi. Qətranın qəsidələrində də göstərildiyi kimi, Əli Ləşkəri ən çox xristian dövlətləri ilə mübarizə aparmışdır. Bölgədə ən qüdrətli xristian dövləti Roma(Bizans) imperiyası idi. Bu imperiyanın tərkibində baqratunilərin hökmranlıq etdiyi Ani, Abxaz, Kaxetiya, Kartli kimi kiçik feodal knyazlıqlar mövcud idi. Qətran Təbrizinin əsərlərindəki ermənilər, gürcülər də Bizans feodalları idi. XI əsr Bizansın zəiflədiyi dövr olduğu üçün imperiyanın şərq sərhədlərində yerləşən feodal knyazlıqlar müstəqil siyasət aparırdılar. Xüsusilə də bölgəni idarə edən Baqrat sülaləsinin nümayəndələri aktivlik göstərirdilər. Qəsidələrindən birində Qətran Qurban bayramı vaxtı Ləşkərinin ikiqat savab qazandığını yazır. Çünki, Qurban bayramı vaxtı qoyun və keçidən artıq kafir öldürmüşdür. Türk tarixçisi Münəccimbaşı, Əli Ləşkərinin dövrünü təlatümlü dövr adlandırır. Çünki, təkbaşına böyük bir ərazini digər ölkələrin arasında müstəqil idarə etmək çox çətin idi. Əli Ləşkərinin dövründə Tiflis əmirliyi də Gəncə Arran əmirliyinin vassallığını qəbul etməli olmuşdu. Gürcülərin daimi hücumuna məruz qalan Tiflis şəhəri özünü müdafiə etmək qüdrətində olmadığından uzun müddət idi ki, Şəddadilərin yardımı sayəsində ayaqda qalmışdı. Tiflisi idarə edən Cəfəri xanədanı Şədadi nəsli ilə qohumluq əlaqələri qurmuşdu. Görünür Tiflis əmirləri Gəncə sarayında tez-tez olurdular. Çünki, Qətran onların Ləşkərinin sarayında qonaq olduğunu qeyd edir, həmçinin Şəddadilərdən şah adlandırdığı Cəfər adlı birinə qəsidələr həsr etmişdir, görünür bu şəddadilərə qohumluğu çatan Tiflis əmiri Cəfər ibn

Əlidir. Qətran şeirlərindən birində Arran şahının Cəfərdən ötrü qoşunla gəlib Cəfərin düşmənləri ilə döyüşdüyünü yazır [1, s. 142]. Ləşkərinin başqa bir vəziri Qasım Əbülmüəmmərə də bir neçə qəsidə həsr etmişdir. Həmçinin əvvəldə qeyd etdiyimiz kimi Qətran onu Gəncə sarayına gətirərək Əli Ləşkəriyə təqdim etmiş sipəhdar Yəsrə də qəsidələr həsr etmişdir. Qətran Ləşkərinin sarayında daimi qalmamışdı. Bir neçə dəfə, müxtəlif zamanlarda Gəncədə yaşamışdı. Görünür, Ləşkərinin ölümü və sonrakı saray çəkişmələrində iştirak etməmişdi. Qətranın şeirlərindən Ləşkərinin daima müharibələrdə olduğu, döyüşlərdə iştirak etdiyi məlumdur. Bu cür döyüşlər oğuzlarla da baş vermişdir. Çünki Səlcuqlular Ləşkərinin dövründə onu bir neçə dəfə məğlub etsələr də Arranı özlərinə tabe edə bilməmişdilər[5, s.497]. Axına Sultan Toğrulun qardaşı Çağrı bəy başçılıq edirdi. Lakin Gəncəni mühasirə edənin Səlcuq sərkərdəsi Qutalmış olduğu göstərilir. Hesab edilir ki, Qutalmış 1045-1046-cı illərdə düz il yarım Gəncəni mühasirə etmişdir. Eyni zamanda 1045-ci ildə Səlcuq və Şəddadi ordularının birlikdə Bizans (Roma) orduları ilə toqquşduğu da yazılmaqdadır [9, s. 4-11]. Bu məlumatların hər ikisinin doğru olduğunu qəbul edəcəyimiz halda biz Aranşahlığın əmirliklərinin Səlcuqlu ilə ayrı, Arran şahının isə ayrı münasibətdə olduğunu demək məcburiyyətində qalırıq. Yəni Arranşahlığın vassal feodalları Səlcuqlu ilə müttəfiqlik etmiş, Səlcuqlunun bir qolu isə həmin ərəfədə Gəncəni, paytaxtı mühasirə etmişdir. Lakin bütün bunlara baxmayaraq Əli Ləşkəri situasiyanı tam nəzarətdə saxlaya bilən bir hökmdar idi. Əli Ləşkərini Qətran şücaətdə Xarəzm hökmdarlarına, yəni türkəsilli Qəznəvi və Səlcuqlu hökmdarlarına tay tuturdu. Başqa bir şeirində Ləşkərinin oğullarının Mənuçehr və Gudərzin toyunda olduğunu göstərir [1, s. 136]. Bu məqam sonrakı siyasi proseslər barədə sual yaradır. Çünki II Əli Ləşkəri rəhmətə getdikdə onun yerinə azyaşlı övladı Ənuşirəvan(1049) hakimiyyətə gətirilir. Halbuki Qətran qeyd edir ki, şahın toyu olmuş yeniyetmə oğulları var. Görünür, vəzir Hacib Əbu Mənsur Qasım onları kənarlaşdırmışdı. Arran şahlığının tərkibində I Fəzlin dövründən Dəbilin(Dvin) adı çəkilir. Əvvəldə də qeyd edildiyi kimi, 1022-ci ildən etibarən Dəbili Fəzlunun oğlu Əbu ül Əs Süvar(1049-1067) idarə etmişdir. Lakin Dəbil öz möhtəşəmliyinə görə o dövrdə Gəncə ilə müqayisə oluna bilməzdi. Əs-Süvar Ləşkərinin əmisi idi. Ləşkərinin ölümündən sonra onun azyaşlı və səriştəsiz oğlu Ənuşirəvanı taxta çıxardaraq, onun səriştəsizliyindən istifadə edib hakimiyyəti qəsb etməyə çalışan vəzir Hacib Əbu Mənsur Qasım bir neçə qalanı abxazlara bağışlayaraq öz hakimiyyətini xarici təhlükələrdən qorumaq və xarici dəstək almağa çalışır. Lakin Şəmkirdə əxi təşkilatının rəhbərlərindən olan əl-Heysəm ona qarşı üsyan qaldıraraq əs-Süvarı Arran şahı olmağa dəvət edir. Əs-Süvar əvvəl Şəmkiri, sonra Bərdə və Gəncəni ələ keçirdərək taxta çıxır [3, s. 61-62]. Onun dövründə Şəddadilər ilk dəfə digər dövlətdən asılı olduqlarını qəbul edirlər. 1054-cü ildə Sultan Toğrulun qoşunları şəddadiləri yekun məğlubiyyətlə vassal asılılığını qəbul etməyə məcbur qoyurlar [6, s. 16]. Lakin Əs-Süvarın dövrü Arranşahlığın inkişafının pik dövrü sayılırdı. Bunun əsas səbəbi onun Səlcuqlu Alp Arslanla yaxın münasibət qurub oğuzlardan məharətlə istifadə etməsi və onların Bizans yürüşlərində iştirakı olmuşdur. Bu yürüşlərdə o həm böyük qənimət əldə etmiş, həm də şücaətinə görə Alp Arslan tərəfindən mükafat kimi Ani şəhərini alaraq öz ərazilərinə qatmışdı. Bundan sonra Ani şəhəri 100 ildən çox Şəddadilər Sülaləsinin idarəçiliyində olacaqdı. Digər Şəddadilər kimi əs-Süvar da döyüşkən bir hökmdar idi. Hakimiyyətinin son dövrlərində Şirvana yürüşlər təşkil edərək şəhərləri yandıraraq qarət etmiş, qohumu Şirvanşahı öz asılılığını bildirməyə və xərac verməyə məcbur etmişdir [3, s. 67], hətta döyüş əsnasında Şirvanşahla evləndirdiyi dul qızını da Şirvanşahın digər ailə üzvləri ilə birlikdə əsir götürmüşdür. XI əsrdə Qafqazda böyük qüvvələrdən biri də alanlar idi. 1062-ci ildə Alan hökmdarı Durquleli Arrana axın edərək ərazini qarət etmişdi. 1063-cü ildə əs-Süvar Gəncə ətrafında qala səddi çəkir, lakin Durquleli növbəti yüründə elə səddin ətrafında Arran qoşunlarını məğlub edə bilir. Qətran bir də əs-Süvarın oğlu Fəzlunun(II Fəzl) (1067-1073) dövründə Gəncədə olur. O, Fəzluna həsr

etdiyi mədhnamədə o dövrün siyasi hadisələrinə işarə edir. II Fəzlun da digər şəddadilər kimi ömrünü döyüşlərdə keçirtmişdi. 1068-ci ildə gürcü knyazı IV Baqratla döyüşdə Kartli-Ereti çarı Aqsartana əsir düşür və yalnız Səlcuqlu Alp Arslanın müdaxiləsi ilə azadlığa çıxa bilir. Görünür, Alp Arslan onu şəxsən tanıyırdı və birlikdə döyüşlərdə olmuşdular. Fəzlun böyük fidyə qarşılığında 1069-cu ildə yenidən Gəncəyə qayıdır. 1068-1069-cu illərdə bir neçə aylıq dövləti Fəzlunun qardaşı, əs-Süvarın Taşir knyazı David Baqratuni-Gürgenin qızından olan oğlu Aşot(1068-1069) idarə edir. Qətran qeyd edir ki, Fəzlun əsirlikdə olanda onun düşmənləri sevinir, qayıtdıqdan sonra o dostlarına günəş kimi işıq saçır, düşmənlərinə isə qəbir qazır [1, s. 32], deməli Fəzlun sarayına qayıtdıqdan sonra əyanlar içərisində ciddi dəyişikliklər etmişdi, yəni onların bəzilərini edam etmiş, yaxud vəzifədən kənarlaşdırmışdı. Eyni zamanda o Fəzlunu Baqratunilərin fəxri də adlandırır. Fəzlun Baqration sülaləsindən qız almışdı, bu qız Abxaz çarının bacısı qızı idi. Əvvəlcə Səlcuq sultanı özü həmin qızla Həmədanda toy etmişdi, lakin sonra onu boşayaraq Fəzluna hədiyyə etmişdi [2, s. 205]. 1073-cü ildə Fəzlun ölür (Fəzlun ibn əs-Süvar, yaxud II Fəzl), onun yerinə oğlu III Fəzl (Fəzlun ibn Fəzlun) (1073-1075) hakimiyyətə gəlir.

Şəddadilər Arranda dövlət qurduqları gündən oğuz axınlarına qədərki dövrdə Şirvanşahlar da daxil olmaqla bütün şimali Azərbaycanı, Naxçıvan və Qərbi Azərbaycan ərazilərini Qarsa qədər, həmçinin Tiflis şəhərini idarə etmişdilər. Bölgədə çoxlu əmirliklər var idi. Bu əmirlərin bir çoxu özünü şah adlandırırdı. Qətran öz şeirlərində deyirdi ki, Arranşah şahlar şahıdır, o qədər qüdrətlidir ki, hər bölgəyə şah göndərir. Naxçıvan-İğdır bölgələrini yarım əsrdən bir qədər çox idarə etmiş Əbu Duləfin nəsli də Arranşaha vergi verirdi. Lakin, Səlcuqluların gəlişi ilə siyasi stabillik pozulmuşdu. Şəddadilərin Arran hakimiyyətinin sarsılması 1072-ci ildə Məlikşahın sultan olması ilə başlamışdır. Hesab edilir ki, Məlikşah Gürcüstan səfəri zamanı Gəncəyə də diqqət ayırmış, ordu göndərmişdir. Belə ki, 1075-ci ildə Səlcuqlu sərkərdəsi Savtəkin Arrana gələrək bir neçə toqquşmadan sonra Gəncədə Şəddadi III Fəzli taxtdan endirdi və bölgəyə Səlcuqlu əmiri nəzarət etməyə başladı [10, s. 161-167]. Bu hal Arran Səlcuq məlikliyi qurulana qədər belə də davam etdi. Bununla belə Fəzluna böyük güzəşt edilmişdi, o bağışlanaraq Astrabada hakim göndərilmişdi. Lakin o ilk fürsətdə Gəncəyə qayıtmış və 1088-ci ilə kimi şəhər uğrunda mübarizə aparmışdı [4, s. 531]. Maraqlıdır ki, analojik olaraq Səfəvilər dövründə Gəncədən köçən qacarlar da Astrabadda məskunlaşmış, onlardan Qovanlı-Qacar nəsli Astrabadın hakimliyinə yüksəlmişdilər.

Arranın şəddadilərdən alınması boş yerə baş verməmişdi. Bunun səbəbi şəddadilərin yanlış siyasəti idi. II Fəzlun baqratların əsirliyindən qayıtdıqdan sonra bir sıra əməliyyatlar aparmışdı. Gürcülərdən bir neçə qalanı almışdı. Lakin az sonra Alanlar axın edərək Fəzlunu geri çəkilməyə məcbur edirlər. Hətta Alan hökmdarı Durquleli mənbələrdə sayı 40 yaxud 48 min olduğu göstərilən Alan ordusu ilə şəhəri ələ keçirdərək talan edir [2, s. 205]. Bu yanlış siyasət Arran oğuzlarını narahat edirdi. Onların təkidi ilə Səlcuq Sultanı prosesə müdaxilə edərək bölgəyə öz canişinini göndərməli olmuşdu.

Gəncədə Səlcuqluların taxtı yerləşirdi və uzun müddət, yəni XI əsrin sonlarından II Arslanın Səlcuq Sultanı olmasına qədər Səlcuq sultanlarının fəaliyyətinə ciddi təsir göstərmişdi. Arran oğuzların mühüm məskunlaşma bölgələrindən idi. Burda yarım əsrdən artıq yaşayan oğuzlara gəncəviyyə türkmənləri deyilməyə başlamışdı. Səlcuqlular daha çox hərbi gücə əsaslanan dövlət sistemi qurmuşdular. Orta əsrlərdə dünyanın əksər bölgələrində idarəçilik hərbi gücə əsaslanırdı. Bu mənada Arrandakı oğuz türkman hərbi qüvvələrinin gücü imperiyanın mərkəz ətrafındakı digər bölgələrinin gücünü üstələyirdi. Sonrakı dövrlərdə Məhəmməd Təpər Gəncədən gedərək Böyük Səlcuq Sultanı olmuşdu [2, s. 44]. Əsasən Xarəzmdə ömrünü keçirdən Səncərin vaxtında onu taxtda əvəz edən, Sultan Toğrul, Sultan Məsud və Sultan Mahmud da Aran Səlcuq məlikliyindən çıxmışdılar. Burda Atabəylik sistemi də formalaşmışdı. Məsələn Gəncə zəlzələsi vaxtı Gəncənin hakimi olan Qara Sunqur [2,

s. 120], onun qulamı olmuş Çavlı Səlcuqlu dövlətinin əsas dayaqları olmaqla bərabər, həmçinin sultanların hakimiyyətinə ən böyük təhdid sayılmışlar. Sonuncu Arran hakimi Xassbəy Pələng ibn Ari də bura xüsusi canfəşanlıqla gəlmişdi. Gəncəviyyə türkmənlərinə qayıtsaq onlar Səlcuqlu imperiyasının son dövrlərində də siyasi proseslərə ciddi təsir göstərmiş tayfalar idi. Onların adı monqollarla baş vermiş döyüşlərdə də çəkilir. Bunlar haqqında tarixçi İbn Bibi məlumat verir. İbn Bibi onların Kösədağ döyüşündə Anadolu səlcuqluları ilə birlikdə Monqollara qarşı mübarizə apardığını və Birəcikdə monqolları məğlub etdiyini göstərir. Bütün bu hadisələr Qətran Təbirizinin də şahidlik etdiyi Arran mühitinin tarixin sonrakı dövrlərinə göstərdiyi təsirlərdir. Arran mühiti İslam dünyasının şimal sərhədlərində xristianlar, tenqriçilər, animistlərin əhatəsində formalaşmış müsəlman iqamətgahı idi. Burda bir çox maraqlar toqquşurdu və sonrakı dövrlərdə də bu hal davam etmişdir. Bölgənin xristian qüvvələrinin qarşısını Arran və Gəncə şəhəri kəsmiş, bundan sonra da xristianların təbii düşməninə çevrilmişdir. Sonrakı 800 il ərzində gürcülərin dəfələrlə Gəncəyə yürüş etməsi də tarixi gedişatın bir parçasıdır.

## *Nəticə*

Aparılan tədqiqatda bir çox yeni məlumatlar əldə edilmişdir. Məsələn Arran hökmdarı nəinki şah adlanırdı, həmçinin Dəbil, Ani, Beyləqan kimi kiçik bölgələrə təyin etdiyi əmirlər də şah hesab olunurdu. Bundan əlavə şəhər hakimləri də şah titulu daşıya bilirdi. Beləliklə, Arran hökmdarı özünü şahənşah adlandıra bilirdi. Bu ənənə hələ qədim Sasani, Əhəməni dövlətlərinin dövründən mövcud idi. Bunun nəticəsində Arranşah özünün digər dövlətlərdən asılı olmadığını sübut edə bilirdi. Arranşahların içərisində regionda müstəqilliyə nail ola bilmiş yeganə hökmdar məhz Əbülhəsən II Əli Ləşkəri olmuşdur. O yeni formalaşan Səlcuq dövlətinə də tabe olmamışdır. Əbuləsvar Şavurun daha böyük əraziyə nəzarət etməsinə baxmayaraq o heç vat Ləşkəri kimi xarici siyasətində müstəqil ola bilməmiş və Səlcuq imperiyasından asılı olmuşdur. Həmçinin, Qətran Təbrizinin şeirlərində Əli Ləşkərinin aramsız müharibələr apardığı və dəfələrlə fərqli şəhərlərə, feodal knyazlıqlara yürüşlər etdiyi, Bizans, Xəzər və Səlcuq kimi böyük imperiyalar, ciddi hərbi qruplaşmalarla üz-üzə gəldiyi məlum olur. Gəncə sarayı Dəbil, Naxçıvanşahlıq, Ani, Tiflis, Şirvanşahlıq kimi iri əmirliklərin, dövlətlərin xəracının axdığı şəhər olmuşdur. Burada Qətran Təbrizi kimi incəsənət xadimləri yaşamış və yaratmışdır. Səlcuqların gəlişindən sonra da ən gec Arranşahlıq tabe edilmiş, həmçinin bölgənin strateji əhəmiyyəti, resurs zənginliyinə görə uzun müddət ləğv edilməmiş, əksinə Səlcuq dövlətinin sərhəd paytaxtı kimi fəaliyyət göstərərək imperiyanın taleyüklü məsələlərində həlledici rol oynamışdır. Gəncənin sonrakı taleyini bir növ Fransanın dofin apanaj sisteminə bənzətmək olar. Belə ki, Fransız şahzadələri hökmdar olmazdan əvvəl əsasən Orleanda hakimiyyətdə olduğu, hersoq titulu daşıdığı kimi, Səlcuq şahzadələri də uzun müddət Gəncəyə göndərilərək burada Arran Məliyi titulu daşımışlar. Təbii ki, burda yetişən şahzadələr də sonrakı dövrlərdə Səlcuq taxtına yiyələnirdilər.

## ƏDƏBİYYAT

1. Qətran Təbrizi. Divan. Bakı, 1967, 440 s.
2. Nəcəf Ə. Aran Atabəyləri. BaşlaKitab, 2017, 427 s.
3. Allahverdiyev N. Gəncə min ildə. I kitab; “Elm və Təhsil”, Bakı, 2018, 335 s.
4. Azərbaycan Sovet Ensiklopediyası IX cild; Bakı ,1986; 624 s.
5. Azərbaycan Sovet Ensiklopediyası X cild; Bakı, 1987; 608 s.
6. Altman M. Gəncə şəhərinin tarixi. Tovuz mətbəəsi, 1991; 63 s.
7. Azərbaycan tarixi üzrə qaynaqlar; Bakı 1989; 322 sh.
8. Гейбуллаев Г.А. К Этногенезу Азербайджанцев. Bakı, “Elm”, 1991, 552 s.

9. Rəsulova N. Şərqin strateji əhəmiyyətə malik şəhəri və Şəddadilərin paytaxtı Gəncə/ "Gəncədə başlayan dövlətçilik səlnaməsi" mövzusunda Respublika elmi praktiki konfransının materialları/ Gəncə, 2025, 4-11, 291 s.
10. Rəsulova Nə. Səlcuq yürüşləri dövründə Gəncə. /AMEA Gəncə Bölməsinin təşkilatçılığı ilə "AMEA-80" mövzusunda Elmi-Nəzəri konfransın materialları/ Gəncə, 2025, 161-167, 364 s.

УДК 94(479.24)

*Ясин Атраф оглы Алмаммедов,*
*Рузия Акиф кызы Абдуллаева, Роя Асиф гызы Гасанова*
*Гянджинский филиал НАНА*

ГЯНДЖИНСКАЯ СРЕДА XI ВЕКА И АРАНШАХАЛИДСТВО В ПРОИЗВЕДЕНИЯХ КАТРАНА ТЕБРИЗИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, Арран, Арраншахство, Шаддадиды, Сельджукиды, Фазлун, Али Лашкари, Катран Тебризи

В статье рассматривается становление города Гянджи в X-XI веках, дворцовая среда города и превращение его в столицу. Эти процессы прослеживались на основе од и образов известного азербайджанского поэта и мыслителя XI века Катрана Тебризи, а также описаний и образов в его гимнах, а также изучалась среда Арранского царства и ее влияние на взаимные политические процессы этой среды и региона. В статье использованы труды современных авторов о событиях, происходивших в Гяндже, столице Арранского королевства.

UDC 94(479.24)

*Yasin Atraf Almammedov,*
*Ruziya Akif Abdullayeva, Roya Asif Hasanova*
*Ganja Branch of ANAS*

THE 11TH CENTURY GANJA ENVIRONMENT AND THE ARANSHAKHALIDITY IN THE WORKS OF QATRAN TABRIZI
*SUMMARY*

*Key words:* Ganja, Arran, Arranshahdom, Shaddadids, Seljuks, Fazluns, Ali Lashkari, Qatran Tabrizi

The article examines the formation of Ganja city in X-XI centuries, the palace environment of the city and its transformation into the capital. These processes were traced on the basis of the odes and images of the famous Azerbaijani poet and thinker of XI century Qatran Tabrizi, as well as descriptions and images in his hymns, and the environment of the Arran Kingdom and its influence on the mutual political processes of this environment and the region were studied. The article uses the works of modern authors about the events that took place in Ganja, the capital of the Arran Kingdom.

**Daxil oldu: 23.06.2025-ci il**